# QALİB KOMANDAN YOLU,

## *siyasi portretlər Şakirin poetik düşüncəsində*

Mənəvi məsuliyyət, insanların həyəcanı bəzən o qədər yüksəlir ki, duyğular, düşüncələr müəllif istəsə də, istəməsə də poetik axar alır. Əlbəttə, dəfələrlə qeyd etdiyimiz kimi, Şakir tədqiqatçı alimdir. Fəal jurnalistika fəaliyyəti ilə də məşğuldur. Ən azı, illərdən bəri nəinki Cəbrayılın, bütövlükdə Qarabağın və elə həm də Azərbaycanımızın ümid qolları olan Xudafərinin daşıdığı mənəvi istəkləri ehtiva edən qəzeti nəşr edir. Şübhəsiz, qəzetin adının "Xudafərin" olmasının özü də baş redaktor kimi Şakirə müəyyən məsuliyyət hissləri diktə edir.

Unutmaq olmaz ki, vətən təkcə geniş çölləri, çayları, meşələri ilə vətən deyil. Həm də yaraları ilə vətəndir. Bu vətəni sağaltmaq üçün, onun ruhunu, mənəvi mühitini qorumaq üçün hər kəs onun yaralarının haradan, necə göynədiyini öz varlığında, canında hiss etməlidir.

Şakirin "Müzəffər Ali Baş Komandan" adlı kiçik həcmli bir poeması var. İllərcə şeir yazmayan, özünüifadə üçün poeziyaya müraciət etməyən Şakir bu bədii-poetik əsərini 2020-ci ildə, sentyabrın 29-da qələmə alıb. Həm də şeirin ruhu belə bir həqiqəti diqtə edir ki, müəllif əsəri birbaşa, bir dəfəyə yazıb. Zənnimcə, göstərilən tarix müəyyən həqiqətləri ehtiva edir. Bu o vaxt idi ki, erməni vandallarının Qarabağla bağlı siyasi möhtəkirlikləri demək olar ki, həddini aşmışdı. Hətta Paşinyan erməni vandallarını başına yığıb Şuşada yallı gedir və "Qarabağ Ermənistandır. Nöqtə" deyirdi. Bu ifadənin özü artıq kəskin şəkildə cavab istəyən mesaj idi. Çox keçmədi ki, İlham Əliyev çox açıq-aydn bir şəkildə bəyan etdi: "Qarabağ Azərbaycandır və nida işarəsi". Bununla da, artıq ermənilərin Qarabağda meydan sulamaqlarının sonu elan olundu.

Sentyabrın 27-də müharibə başladı. Quduzlaşmış vandallar müxtəlif tərəflərdən Azərbaycan sərhədlərini pozur, səngərlərimizi hücumlarla təhdid edirdilər. Beləliklə, əks-hücum əməliyyatı başladı. Bu vaxta qədər düşmən Azərbaycanın igid generalı Polad Həşimovu, polkovnik İlqar Mirzəyevi xain atəşlərlə şəhid etmişdi. Azərbaycan əsgəri bütün varlığı ilə qəzəbə dolmuşdu. Müharibənin ilk günündəcə hadisələr bütün kəskinliyi ilə Azərbaycan ordusunun qələbəyə inam əzmini hər kəsə hiss etdirdi. Görünür, Vətən müharibəsinə təkcə Azərbaycan ordusu və Ali Baş Komandan yox, elə Azərbaycan ziyalıları da ruhları etibarı ilə artıq səfərbər olunmuşdular. Yoxsa başqa cür Şakir elmi tədqiqat işini bir tərəfə qoyub müharibənin elə ilkinci günündə öz hisslərini poetik axara yönəltməzdi. Əsərin elə ilk misralarındanca görünür ki, müəllif dostu-düşməni sözünün rəngi ilə ayıra bilir. Kimin ünvanına nə deyəcək, kimi tərənnüm edəcək, kimi divan ayağına çəkəcək - bu onun sözünün axarından görünür.

Kimsəyə sirr deyil ki, uzun illər boyu, az qala 30 il Azərbaycan torpaqları - Qarabağ işğal altında qaldı. Amma dünyanın elə bir ədalət hissi ilə yaşayan qurumu, sözü keçərli olan siyasətçisi ortaya çıxıb əsil həqiqəti dilinə gətirmədi. Həqiqət isə çox yaxında idi. Azərbaycan torpağının üstündəki qanlarda görünürdü həqiqət.

Səngər, Azərbaycan əsgəri, Ali Baş Komandan və bütövlükdə vətən artıq bu çılpaq həqiqətlə üz-üzə idi. Müəllif də öz əsərində məhz ruhunu bu həqiqəti tərənnüm üzərində kökləyə bilmişdi. Ona görə də ilk misralardanca biz onun poetik axarının gətirdiyi hisslər, duyğular axınına düşürük. Müəllifin sözündə tərəflər üz-üzədir, bir tərəfdə həqiqətdir, digər tərəfdə yalan. Bir tərəfdə vətəndir, digər tərəfdə işğalçı, yağı. Bir tərəfdə şəhidlik var, digər tərəfdə yağının ölümü var, divanı var. Ən yaxşısı, elə müəllifin öz əsərindən bir parçanı oxucunun ixtiyarına verək. Müəllif isə bir qədər əvvəlki zamandan gəlir. Siyasi-diplomatik münaqişələrin qarşılaşdığı məqamlardan üzü bəri: *"Ali Baş Komandana Qoy eşitsin dünya, Anlasın düşmənBizim Azərbaycanın Ali Baş Komandanı Cənab İlham Əliyev Xalqın sevimlisidir. O İlham Əliyev ki, BMT-dən, ATƏT-dən Təcavüzkar, işğalçı Haqsız Ermənistana Göstərilən təsirdən, Görüləcək tədbirdən Bir kaş aşmadı, onda Beyxəlxalq ArenadanDərs verdi Paşinyana"*. Müəllif məhz bu dərsvermə həqiqətindən danışır. Azərbaycan ordusunun müharibə meydanındakı müəllimliyindən danışır. Qarşı tərəf mütiliklə, bəzən fərariliklə, hətta inadlı məqamlarda belə acı məğlubiyyətlərlə üz-üzə gəlir. Ermənistanın Baş Naziri, başqa sözlə, Ermənistan ordusunun Ali Baş Komandanı aciz durumdadır. O vurnuxur, dünya ölkələrinin söz sahiblərinə, güc mərkəzlərinə müraciət edir, Rusiyaya yalvarır. Amma unudur ki, artıq 90-cı illərin əvvəlləri deyil. İndiki mükəmməl Azərbaycan ordusunun özünü diqtə etdiyi 2020-ci ildir. Bəli, bu il Azərbaycan tarixində əbədi olaraq qələbə ili kimi yaşayacaq.

Ali Baş Komandanın siyasi hazırlığı, kifayət qədər hərbi situasiyaya tam güclə mənəvi səfərbərliyi elə ilk günlərdən hiss olundu. Bir mənalı şəkildə demək lazımdır ki, bütün işğal dövründə susmuş olan güc mərkəzlərinin, aparıcı mətbuat orqanlarının təmsilçiləri Azərbaycana yol açdı. Hətta ən qərəzli, ən dolaşıq suallarla həqiqəti çözməyin yolunu bağlamağa çalışan siyasi icmalçılar, jurnalistlər Ali Baş Komandandan müsahibələr alırdı. Amma əsil həqiqət budur ki, bizim elatda deyildiyi kimi, daş qayaya qarşı gəlmişdi. İlham Əliyevi hər hansı bir yöndə qəliz hesab olunan bir sualla kəskinlik qarşısında qoymaq mümkün deyildi.

Müəllifin mövqeyi söz yox ki, birmənalı şəkildə Ali Baş Komandana sevgi notları üstündə köklənib. O, birmənalı şəkildə Ali Baş Komandana güvənclə ruhunu sözə çevirir, varlığını dilə gətirir: *"Qoy eşitsin cahan, Qoy bilsin düşmən Bizim Ali Komandan O İlham Əliyevdir - Ümummilli liderin Cisminin bir parçası, Ruhunun davamçısı... O İlham Əliyev ki, Böyük ulu öndərin Ruhu ruhunda yaşar, Cismi qanında coşar. Düşmən bilsin ölməyib Heydər Əliyev ruhu. YAP siyasi xətti də Düzgün siyasi yoltək Davam edir uğurla, Günbəgün açır çiçək"*. Doğrudur, müəllif bəzi məqamlarda İlham Əliyevin ölkədəki siyasi dayaqlarını da yada salır. YAP-ın sədaqətli qüvvələrini xatırlayır. Ən başlıcası, xalqın bütövlükdə inandığı, güvəndiyi Ali Baş Komandanla birgə nəfəs aldığını diqqətə çəkir. 44 günlük müharubədə analoqu olmayan xüsusi bir psixoloji mühit yaddaşlara həkk olundu. Xalq uşaqdan-böyüyə hər bir nəfər kimi Ali Baş Komandanın ətrafına cəm olmuşdu. Onun yolunu təqdir edirdi, mübarizələrinə zəfərlər diləyirdi. Hələ müharibənin ilk günündə verilən şəhidlərin ağrısı, ağırlığı Azərbaycan xalqının belini əymədi. Onu daha mətin, daha inamlı və daha qüdrətli mənəvi üstünlük mərtəbəsinə qaldırdı. Bütün bunların hamısını ona görə xatırladıq ki, müəllif dövrün psixoloji həqiqətlərini sözün həqiqi mənasında yüksək ruhla tərənnüm edir. Müəllifin mövqeyi bütün hallarda açıq həqiqətə əsaslanır. Müzəffər Ali Baş Komandan həqiqəti yox, qeyri-həqiqəti müdafiə etməyə çalışan dünyanın ayrı-ayrı siyasi mərkəzlərinin təmsilçilərinə qətiyyətlə cavab verir, Azərbaycan torpaqlarının tarixi haqqında danışır, Qarabağ həqiqətləri haqqında danışır və bütün məqamlarda siyasi üstnülüyü, məntiqi gücü ilə qalib olur. Müəllif də çağırış ruhlu poetik mətinlərində məhz bu həqiqətlərə işıq tutur: *"Ruhu şaddır öndərin-,İlham kimi layiqli Cismani və mənəvi Övladı-varisi var; Cahanda yaşayacaq Ölməz Heydər irsi var. Dünyanın siyasi kəhkəşanında İlham Əliyevin Tək ana dilində yox, İngiliscə, rusca, Çox səlis və açıqca Keçdiyi bir dərsi var. ATƏT-dən, Avropadan, Nə uzaq AmerikadanHeç kəs verə bilmədi Bir dərs daşnaksütyuna - Nə Nikol Paşinyana, Nə Robert Köçəryana, Nə də ki Sarkisyana. Aləmin qarşısındaDünyaya göz-görəti O bir açıq dərs verdi Bütün Ermənistana.Dünya Şahmat taxtası, İlham bir gediş etdi Siyasət xanasında, Dünya şahı mat qaldı. (Əli üzündə qaldı Heyrətdən bu dünyanın) Üzə çıxdı dünyanın Doğru-düzü, əyrisi, Yalanı və saxtası. Haqq nazilər, üzülməz, Deyib ulu babalar. Varıymış demə hələ Odumuz-oyunumuz. Haqqımızı əydilər, Haqqımızı yedilər. Çörək tutdu namərdi: Çörəyimiz-suyumuz Axır gözündən gəldi Nankor bəd qonşuların..."*. Təsadüfi deyil ki, müəllif ötən zamanları da yada salır. XX əsrin əvvəlində, lap elə 18-20-ci illərdə erməni quldurlarının Zəngəzurda, Qarabağda törətdikləri faciələri yada salır. Üstəlik, hətta Azərbaycan xalqının torpaq güzəştlərini də xatırladır. Amma nə fayda, düşmən öz tamahından geri çəkilmir. Azərbaycanlılarla uzun illər bir yerdə çörək kəssələr də, Azərbaycan xalqı ilə hətta qohumluq əlaqələri qursalar da belə, son məqamda yenə yağılıq yolu tutdular, düşmənçilik yolu tutdular.

Sovet İmperiyasının çöküşü zamanında özlərinin havadarlarına güvənərək ən dəhşətli faciələri törətməkdən belə çəkinmədilər. Xocalını, Kəlbəcəri, Laçını, Cəbrayılı, Füzulini xatırlatmaq bəs edir ki, onların nə qədər dinc insan qanı axıtdığını hər kəs təsəvvüründə canlandıra bilsin.

Müəllif inanır ki, Azərbaycan ordusunun güc mənbəyi onun xalqla, Ali Baş Komandanla mənəvi birliyindədir. Eyni zamanda bu birlik ona görə sarsılmazdır ki, əsas tarixi qaynaq var. Azərbaycanın yadelli işğalçılara qarşı yenilməz sərkərdələri olub, güc sahibləri olub, xalqın genetik yaddaşında güc sahiblərinin qüdrətli oğulların tarixi ənənələri yaşayır.

Zənnimizcə, müəllif tarixi ənənələri təsadüfən xatırlatmır. O hesab edir ki, bu müharibədə ulu babaların ruhları da iştirak edir: *"Ellərə agah olsun Bizim Ali Komandan Əsrlər arxasından Zühur eləyib gələn Cavanşirdi, Babəkdi, Əmriylənərəsiylə, Haqq söyləyən səsiyləYağı bağırın dələn Qoş döyüşü aparan Əsil qoç Koroğludu, Xalqın vuran qoludu, Özü boyda ordudu. Heydərin zəkasından Günəş kimi parlayan, Şimşək təki gurlayan, Düşmənlərin kürkünə Od salan qor oğludu. Türkiyənin başqanıAnadan ər doğulan O nəhəng Ərdoğanla Siyasət meydanında, Qanlı hərb savaşındaAli diplomat kimi, Hərbi sərkərdə kimi Məsləkdaş-həmfikirdi, Bir yerə çəkic döyən Qardaşdı, əmioğludu. Səslənirəm düşmənə, Fitnəkar hay erməni, Bilmərrə aç gözünü, Baxıb tanı özünü, Kürkünə düşsün birə, Qorxudan qus ödünü, Öl, diril neçə kərə: Heydər dirilib gəlib İlhamın simasında; Şimşək olub gurlayır Vətənin səmasında... Bizim prezidentimiz - Ali Komandanımız İlham Heydər oğludur, Siyasətin nəhəngi, Ulu öndər oğludur. Ər kimi, kişi kimi Dünyaya sözün deyən, Sözün-diqtəsin deyən, Haqdan gələn sədayla Həyəcanlı nidayla "Qarabağ Azərbaycandır!" Hökmün-nöqtəsin qoyan İlham Heydər oğludur, Ər balası ər olar, Ər oğlu ər oğludur .Öz sözünün ağası Nər oğlu nər oğludur!"*. Göründüyü kimi, ən yüksək dalğalı epitetlərdən istifadə edir. Elə bil ki, qədim yunan ordusunun önündə Tirtey nəğmə oxuyur.

Bütün zamanlarda Azərbaycan ordusu hayqırışdan, nərədən, sözdən, qəhrəmananə havalardan güc alıb. Biz bu gücü Ali Baş Komandanı tərənnüm edən misralarda da duyuruq.

Şakir Əlifoğlu kifayət qədər tarixi də, Azərbaycanın keçdiyi hərb yollarını da yaxşı bilir. Folklorçu kimi "Koroğlu" dastanından da xəbərdardır. Saz havalarından da adlarına qədər bilgilidir. Bütün bunların hamısı Azərbaycan əsgərinin tarixən mənəvi güc mənbəyi olub.

Düşünmək olar ki, Şakir də bu əsəri ilə məhz Azərbaycan ordusunun yanında olduğunu, Azərbaycan əsgəri ilə birgə düşmən üzərinə qətiyyətlə yeridiyini bəyan etmək istəyib. Onun düşüncəsinin mahiyyətində quru tərif dayanmır. Azərbaycan əsgərinə inam dayanır. Azərbaycan ordusuna sevgi hissi var bu düşüncələrin içərisində.

Şakir qarabağlıdır. Erməni vandalları onu girov götürsələr də, özünün səyi, bacarığı sayəsində düşmənin əlindən qaçıb qurtula bilmişdi. Elə buna görə də erməni faşistlərinin hansı cəzaya layiq olduqlarını yaxşı bilir. Şakir bu şeiri ilə sanki Qarabağın səsini ifadə edir: *"Doğma Azərbaycanın Qarabağ savaşında Koroğlu tək hayqırıb Haqq səsini ucaldan, Əfsanədən - nağıldan Canlı aləmə gələn, "Qarabağ Azərbaycanın Öz əzəli yurdurur" Deyən qoç Koroğludur! Qalibiyyət cəngili Zəfər marşı çaldıran Bir yenilməz ordudur, Bir daha bilsin cahan, Bu ordunun başında İham Heydər oğludur. Qarabağa xilaskar Qalib komandan kimi Hünər-zəfər oğludur. Xalqım müqəddəs bilib Pir başına dolanar Bir üzük qaşı kimi Birləşdik ətrafında Ali Baş Komandanın; Əmrə tabe olunar! Bu əmrin hökmü altda Şuşam da, Xankəndim də Düşmən əsarətindən Qoparılıb alınar. İnşallah ki, tezliklə Qarabağ torpağında Zəfər marşı çalınar. Çünki bizim komandan Ər oğlu ər oğludur, Xalqımın pir bildiyi Ulu öndər oğludur - İlham Heydər oğludur!"*. Şeirin sonluğuna çatırıq. Misralar təntənəli himn kimi səslənir. Sanki biz qələbənin təntənəli, sevinc dalğalı harayını eşidirik.

Müəllifin yolu həqiqəti ifadə edən düşüncə ilə süslənib. O, birmənalı şəkildə ordu ilə birgə qələbəyə yetəcəyinə inanır. Doğrudur, hələ ki, müharibə iki gündür başlayıb. Amma onun inamı artıq qələbə əzmini öz varlığında təcəssüm etdirən ordunun yanındadır.

Şakir Əlifoğlu Ali Baş Komandanı vəsf edən bu şeiri ilə ona inamını, Azərbaycan ordusuna özünün sevgisini ifadə edib.

Poetik duyğular həmişə təsiredicidir. Xüsusilə ruhsallıqla yazılanda. Şakirin bu əsəri Azərbaycan ordusu üçün ən gözəl tərənnüm mətnlərindən biri kimi yadda qalacaq.

Ə.Rza

*11.05.2023*